## Ukraynanın Azərbaycandakı səfiri Aleksandr Mişenko Qəbələ rayonunda səfərdə olmuşdur

Ukraynanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Aleksandr Mişenko sentyabrın 9-da



Qəbələ rayonuna gəlmişdir. Qəbələ Rayon icra hakimiyyətinin inzibati binasında qarşılanan föəqələdə və səlahiyyətli səfirə rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev tərəfindən bölgənin iqtisadi imkanları, sosial və mədəni həyatı barədə ətraflı məlumat verilmişdir.Cənab səfirə bildirilmişdir ki, son illərdə beynəlxalq və iri miqyaslı tədbirlərin Qəbələdə keçirilməsi bu diyarın sürətli tərəqqisinə əyani misaldır. Eyni zamanda qədim tarixə malik diyarın təbii gözəllikləri ilə bu tərəqqi xüsusi ahəngdarlıq yaradır.

Qəbələ rayonunun simasının nəzərə çarpacaq dərəcədə dəyişdiyini qeyd edən səfir burada fəaliyyət göstərən sənaye müəssisələri və turizm sektorunun faəliyyətini yüksək qiymətləndirmiş, rayonun sosial-iqtisadi inkişafı sahəsində görülən işlərdə rayon rəhbərliyinə daha yüksək uğurlar arzulamışdır.

## Ekologiya və Təbii Sərvətlər naziri Hüseyn Bağırov vətəndaşları qəbul etmişdir

Ölkə başçısı cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra haki-



miyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif problemlərinin həllinə kömək edirlər. Növbəti belə qəbul Qəbələ şəhərində keçirilmişdir. Ekologiya və Təbii Sərvətlər naziri Hüseyn Bağırov Qəbələ Mədəniyyət Mərkəzində keçirdiyi qəbul zamanı Qəbələ, Şəki, Zaqatala, Balakən, Qax, İsmayıllı və Oğuz rayonlarından olan 50-ə yaxın vətəndaşın şikayət və təkliflərini dinləmişdir.Qəbulda vətəndaşların səsləndirdikləri müraciət və şikayətlərlə əlaqədar aidiyyəti qurumların rəhbərlərinə müəyyən göstəriş və tapşırıqlar verilmişdir. Qəbulda ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, meşələrin qorunması, hidrometeorologiya, geologiya, biomüxtəliflik, ətraf mühitin monitorinqi və sair məsələlərlə bağlı şikayət və təkliflər dinlənilmiş, vətəndaşları narahat edən bəzi məsələlər elə yerindəcə həllini tapmış, aidiyyəti üzrə olmayan digər müraciətlər isə müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınmışdır.

# Ukrayna Respublikasının Rovno vilayətinin numayəndə heyəti Qəbələdə

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Ukrayna Respublikasının Rovno vilayətinin nümayəndə heyətinin üzvləri əməkdaşlıq məqsədilə Qəbələ rayonuna səfər etmişlər. Rovno vilayət administrasiyasının sədri Vasili Bertaşın başçılıq etdiyi nümayəndə heyətinin tərkibinə Ukrayna xalq deputatı Blaqodır Yuriy, Rovno şəhərinin meri Vladimir Xomko, vilayətə daxil olan rayonların administrasiya rəhbərləri, həmçinin özəl sektorun 31 təmsilçisi qatılmışlar.**

**Nümayəndə heyətini Qəbələ Beynəlxalq Hava Limanında rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev, Ukraynanın Azərbaycandakı səfiri Aleksandr Mişenko və rayon icra hakimiyyəti başçısı aparatının məsul işçiləri qarşılamışlar.**

## Qəbələ Üzüm Emalı Zavodu ilə tanışlıq

Nümayəndə heyəti Qəbələ rayonu ilə ilk tanışlığa üzüm emalı zavodundan başlamışlar. Qonaqların diqqətinə çatdırılmışdır ki, zavodun qarşısında duran əsas məqsəd respublikada geniş yayılmış və qədim tarixə malik şərabçılıq sahəsinin əvvəlki şöhrətini bərpa etmək və Azərbaycan süfrəsini dünyanın ən gözəl, yüksək keyfiyyətli üzüm növləri və şərab çeşidləri ilə zənginləşdirməkdir. Bildirilmişdir ki, müəssisə öz fəaliyyətində müasir texnologiyanın tətbiqinə və Azərbaycan şərabçılarının ənənələrinə əsaslanaraq, üzümün yetişdirilməsindən yüksək keyfiyyətli şərab və konyak məhsullarının buraxılışınadək tam bir istehsal prosesini özündə birləşdirir.



Müəssisə üzümçülük tingləri istehsalı və satışı üzrə dünyanın ən qabaqcıl şirkətləri olan İtaliyanın "VİVA Cooperative Rausedo" VCR və Fransanın "Gontard Freres" şirkətləri ilə sıx əlaqə yaradaraq, Qəbələ rayonunda nadir iqlim şəraitinə malik, vaxtilə şərab sənayesinin çiçəkləndiyi yerdə - Böyük Qafqaz dağlarının ətəklərində, Savalan vadisində geniş üzüm sahələri salmışdır.

Ərazinin təbii şəraiti, dəniz səviyyəsindən 400 metr yüksəklikdə yerləşməsi, illik yağıntıların miqdarı, illik temperatur göstəriciləri və müxtəlif yerlərdən götürülmüş torpaq nümunələrinin İtaliya və Fransa şirkətlərinin laboratoriyalarında aparılmış analizlərin nəticələri bu yerdə yüksək keyfiyyətli nadir üzüm növlərinin yetişdirilməsinin mümkünlüyünə əsas verir. Bu göstəricilərə əsasən ərazidə əkiləcək üzüm növləri və onların kök sistemləri seçilmişdir. Seçilmiş növlər üzrə yüksək keyfiyyətli üzüm tingləri gətirilmiş və onlar mövcud normativlər əsasında lazımi aqrotexniki tədbirlərin həyata keçirilməsi yolu ilə əkilmişdir.

Qeyd olunmuşdur ki, üzüm emalı müəssisəsinin illik istehsal gücü 1000 tondur. Zavod İtaliyanın ən məşhur şirkətlərinin avadanlığı ilə təchiz olunmuşdur. Hazırda burada 7 növ məhsul istehsal olunur. Gələcəkdə 11 növ məhsulun istehsalı planlaşdırılır.

Zavodda bütün məhsullar yüksək ixtisaslı xarici mütəxəssislərin rəhbərliyi ilə istehsal olunur və yoxlanılır. Şərablar müəyyən olunmuş texnoloji normalara və tələblərə riayət edilməklə zirzəmidə palıd çəlləklərdə saxlanılır. Müəssisənin anbarında minimum silkələnmə, ciddi şəkildə müəyyənləşdirilmiş temperatur, rütubət və işıqlandırma, zəruri mikromühit mövcuddur. Məhsulun belə çəlləklərdə saxlanması bərk zərrəciklərin çəlləyin dibinə çökməsinə səbəb olur ki, onları da oradan təmizləmək asanlaşır. Bundan əlavə, palıd çəlləklərdə saxlanılan əksər şərablar sadə içkini nəfis şəraba çevirməyə qadir xüsusi ətir verir. İstehsal olunan şərab məhsulları bir çox dövlətlərə ixrac olunur. Şərabların gələcəkdə Ukrayna, İtaliya, İsveç kimi ölkələrə ixrac edilməsi də planlaşdırılır.

Zavodda ən müasir avadanlıqla təchiz edilən laboratoriya yaradılmışdır. İstehsal olunan məhsullar İngiltərədən alınan və MDB məkanında yalnız bu müəssisədə quraşdırılan lazer analiz aparatı ilə yoxlanır. Bu aparat kimyəvi preparatlarsız işləyir və bir dəqiqə ərzində şərabın və ya üzüm şirəsinin 24 parametrini maksimal dəqiqliklə müəyyən etməyə imkan verir.

**(Ardı 3-cü səhifədə).**